*Qədim, doğma Qobustanım*

# QOBUSTAN

*Qobustan Rayon İcra Hakimiyyətinin orqanı*

Qəzet 1992-ci ildən çıxır * İCTİMAİ-SİYASİ QƏZET * №02 (185) * Fevral 2019-cu il

# Qobustan rayonu İcra hakimiyyətinin başçısı Adil Məmmədovun 2018-ci ilin yekunlarına dair HESABATI

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və Ulu Öndərimiz Heydər Əliyevin 95 illiyi ilə yadda qalan 2018-ci il, eyni zamanda dərin iqtisadi islahatlarla seçilən çox uğurlu bir il olmuşdur. 2018-ci ildə Azərbaycan xalqının rifahı daha da yaxşılaşmış, iqtisadi və siyasi sahədə çox böyük uğurlar qazanılmışdır.**

Ölkə Prezidentinin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki il ərzində ölkədə baş verən bütün əhəmiyyətli hadisələrə yekun vurmaqla yanaşı, xalqımıza və dünyada yaşayan soydaşlarımıza böyük sevinc bəxş etmiş, qürur hissi yaratmışdır.

Ölkəmizin beynəlxalq aləmdə mövqeyini möhkəmlətmək üçün görülən işlər nəticəsində Azərbaycanın nüfuzunun daha da yüksəlməsi, Avropa İttifaqı və dünyanın mühüm aparıcı beynəlxalq təşkilatları ilə əlaqələrinin güclənməsi, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün göstərilən səylərin getdikcə real nəticələr verməyə başlaması, beynəlxalq ictimaiyyətin Azərbaycanın mövqelərini birmənalı müdafiə etməsi, qonşu dövlətlərlə münasibətlərin daha da möhkəmlənməsi, Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsinə dair uzun illər davam edən müzakirələrin uğurla başa çatdırılması, əhalinin sosial müdafiəsinin, o cümlədən məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ötən il əldə edilən ən böyük uğurlardandır.

Azərbaycan Respublikası Prezidentinin ölkənin inkişafı və xalqın rifahı, regionda və dünyada sülhün bərqərar olması, millətlərarası münasibətlərin yaxşılaşdırılması üçün gördüyü işlər bütövlükdə Azərbaycanın beynəlxalq nüfuzunun daha da gücləndirmişdir. 2018-ci ilin sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyədə "İlin dövlət başçısı" mükafatına layiq görülmüşdür.

2018-ci ildə Azərbaycan Ordusunun qüdrəti daha da artmış və Bakıda keçirilən iki möhtəşəm hərbi parad bunu bir daha təsdiq etmişdir. Ötən ilin ən mühüm hadisələrindən biri də Naxçıvan istiqamətində keçirilən uğurlu hərbi əməliyyat nəticəsində 11 min hektar ərazinin azad edilməsi, bununla da Ermənistandan keçən önəmli kommunikasiya xətlərinin və yolların tam nəzarətə alınmasıdır.

2018-ci ili Azərbaycan tarixində yeni bir dövrün başlanğıcı kimi də qiymətləndirmək olar. Azərbaycan xalqının arzu və istəklərini həqiqətə çevirən Ulu Öndər Heydər Əliyevin siyasi xəttini, onun qarşıya qoyduğu məqsəd və vəzifələri ardıcıl həyata keçirən Prezident İlham Əliyevin növbəti 7 il üçün yekdilliklə Prezident seçilməsi xalqın öz siyasi liderinə bəslədiyi böyük məhəbbətin və inamın ifadəsidir. Onun Prezident kimi fəaliyyət göstərdiyi əvvəlki 15 il ərzində gördüyü işlərin miqyası o qədər geniş və əhəmiyyətlidir ki, Azərbaycanın artan qüdrəti və gücü bu işlərin nəticəsində yaranıb ərsəyə gəlmişdir.



Bu illər ərzində həyata keçirilən düzgün və uğurlu siyasət Azərbaycanın hərtərəfli inkişafını təmin etməklə yanaşı, həm də onu qlobal risklərdən qorumuş, dünyada gedən siyasi mübarizələrin, müxtəlif qanlı toqquşmaların və vətəndaş müharibələrinin fonunda ölkəmizi sabitlik və tərəqqi, tolerantlıq və multikulturalizm simvoluna, nəinki Avropa ölkələri miqyasında, eləcə də İslam aləmində uğurla inkişaf edən bir dövlətə çevirmiş, respublikamızı əsl demokratik inkişaf nümunəsi kimi tanıtmışdır. Azərbaycançılıq ideyaları, Ulu Öndərin bizə miras qoyduğu azərbaycançılıq məfkurəsi bütün sahələrdə öz təsdiqini və inkişafını tapmış, ölkəmiz dinlərarası, millətlərarası münasibətlərin ən yaxşı timsalına çevrilmişdir.

Ötən ilki Prezident seçkilərində Azərbaycan xalqının öz siyasi liderinə göstərdiyi böyük hörmət və yüksək etimad ondan qaynaqlanır ki, cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi bu illər ərzində Azərbaycanın bütün kənd və şəhərlərinin siması tamamilə dəyişmiş, yeniləşmiş, saysız-hesabsız infrastruktur layihələri həyata keçirilmiş, min kilometrlərlə avtomobil yolları çəkilmiş, yüz minlərlə iş yeri yaradılmış, bütövlükdə xalqı narahat edən məsələlərin böyük əksəriyyəti öz həllini tapmış və tapmaqdadır. Bu illər ərzində ölkə iqtisadiyyatına qoyulmuş milyardlarla dollar həcmində xarici və daxili investisiyalar Azərbaycanı regionda həm iqtisadi, həm də hərbi cəhətdən ən qüdrətli dövlətə çevirmiş, eləcə də dünya birliyində söz sahibi etmişdir.

Cənab Prezident 2018-ci il aprelin 18-də keçirilən andiçmə mərasimində Azərbaycanın onun rəhbərliyi ilə son 15 ildə qazandığı misilsiz nailiyyətlərin dərin təhlilini vermiş, iqtisadiyyatın bütün sahələrində ölkəmizin əldə etdiyi qələbələri göstərməklə yanaşı, gələcək inkişaf yollarını, qarşıdakı hədəfləri də sadalamış və bunun üçün konkret tədbirləri müəyyənləşdirmişdir. Ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən başlayaraq Prezident İlham Əliyevin hər bir sözü real işlərə əsaslanır və mütləq həyata keçirilir.

Seçki ilinin yekunları və Azərbaycanın 2018-ci ildə qazandığı nailiyyətlər artıq göz qabağındadır, ölkə Prezidentinin haqqında danışdığı, öz fərman və sərəncamları ilə təsdiq etdiyi dövlət proqramları, böyük iqtisadi layihələr uğurla həyata keçirilməkdədir.Bunların nəticəsi olaraq dünya iqtisadiyyatında Azərbaycanın yeri gündən-günə möhkəmlənir və yüksəlir.

Dünya Bankının "Doing Business" hesabatı ilə yanaşı, Dünya İqtisadi Forumunun Qlobal rəqabətlilik hesabatı da xüsusi maraq doğurur. Tamamilə yeni metodologiya əsasında hazırlanmış son hesabatda 98 indikator üzrə aparılan qiymətləndirmədə ölkəmiz Türkiyə, Serbiya, Gürcüstan və Xorvatiya ilə yanaşı 7-ci onluqda qərarlaşıb. İnfrastruktur, təhsil və bacarıqlar, biznesin dinamikliyi üzrə Azərbaycanın mövqeləri əhəmiyyətli dərəcədə yaxşılaşıb. Hesabatda Azərbaycan dünyada sosial bərabərliyin ən yüksək səviyyədə təmin olunduğu ölkə kimi vurğulanmış, əhalinin elektrik təchizatı səviyyəsinə görə maksimal - 100 faiz nəticə ilə dünyada birinci pilləyə yüksəlmişdir. Azərbaycan həmçinin ətraf mühitə təsir və inklüziv inkişaf indikatorları üzrə liderliyini qoruyur və biznesin dinamikliyi reytinqi üzrə dünyanın 140 ölkəsi arasında 31-ci yerdə qərarlaşıb ki, bu da ölkəmizdə aparılan iqtisadi islahatlar nəticəsində mümkün olub. Hesabatda Azərbaycan digər sahələr üzrə də öncül yerlərdən birini tutmuşdur, bunlardan hava və dəmir yolu nəqliyyatının effektivliyi göstəricilərini qeyd etmək olar.

Dövlətimizin başçısı İlham Əliyev iqtisadi gücümüzün müstəqil siyasət aparmağa, Azərbaycan xalqının maraqlarını müdafiə etməyə imkan verdiyini, keçən ilin uğurlu və dərin iqtisadi islahatlar ili olduğunu, bu islahatların nəticələrini indi hər kəsin gördüyünü, büdcəmizə daxilolmaların xeyli artdığını vurğulayaraq, 2019-cu il yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdir: "İqtisadi islahatların əsas məqsədi bu sahədə şəffaflığı tam təmin etməkdir, xoşagəlməz hallara qarşı mübarizəni gücləndirməkdir və beləliklə, ölkəmizin uğurlu inkişafını sürətləndirməkdir".

Ümumiyyətlə, ölkə həyatının elə bir sahəsi yoxdur ki, ölkə Prezidenti onu müntəzəm nəzarətdə saxlamasın, respublikanın elə bir bölgəsi yoxdur ki, cənab Prezident orada olmasın və mövcud problemlərin həlli üçün dövlət tərəfindən tədbirlər görülməsini təmin etməsin. Təkcə ötən il ölkə Prezidenti ümumilikdə respublikanın 24 rayon və şəhərinə 26 səfər etmiş, 100-ə yaxın yeni sosial-iqtisadi infrastruktur obyektinin açılışında iştirak etmişdir.




Ötən il 5900 köçkün ailəsi üçün yeni evlərin və mənzillərin tikilməsi, şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin mənzil şəraitinin yaxşılaşdırılması, ölkədə ümumi daxili məhsulun artımı, sənaye istehsalının, qeyri-neft sektorunun sürətli inkişafı, nəqliyyat infrastrukturunun ən yüksək səviyyəyə çatdırılması, ölkəmizin beynəlxalq logistika mərkəzinə çevrilməsi, kosmik dövlətlər ailəsində öz mövqeyini daha da möhkəmləndirməsi, onun ixrac potensialının 40 faiz güclənməsi, TAP layihəsinin qismən, TANAP layihəsinin isə tam başa çatması ilə yadda qalmışdır.

2018-ci ildə "Cənub qaz dəhlizi"nin rəsmi açılışı, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi, "Azerspace-2" peykinin orbitə çıxarılması, Türkiyədə 6,3 milyard dollar dəyəri olan "STAR" neft emalı zavodu kompleksinin işə düşməsi, bir çox ölkələrdə Azərbaycan ticarət evlərinin fəaliyyətə başlaması, 2 min kilometr avtomobil yolunun çəkilməsi, 140-dan çox məktəbin, bir neçə mərkəzi xəstəxana binasının tikilib istifadəyə verilməsi və digər layihələrin reallaşdırılması sayəsində ölkə iqtisadiyyatına 17,2 milyard manat sərmayə qoyulmuş, ümumi daxili məhsul 1,4 faiz, kənd təsərrüfatı istehsalı 4,6 faiz, qeyri-neft sektoru 1,8 faiz, sənaye istehsalı 1,5 faiz, o cümlədən qeyri-neft sektorunda sənaye istehsalı 9,1 faiz, əhalinin pul gəlirləri 9,2 faiz artmış, sahibkarlara 160 milyon manat kredit verilmiş, 118 min daimi iş yeri yaradılmışdır.

Azərbaycanda yeni texnologiyalara diqqətin artırılması, ixracın stimullaşdırılması öz nəticələrini vermiş, xarici ticarət balansında müsbət saldomuz 8,6 milyard dollar olmuşdur. Ötən il ölkəmizə 2 milyon 850 min xarici vətəndaş gəlmişdir ki, bu da əvvəlki ilə nisbətən 6 faiz çoxdur.

Azərbaycanda bərqərar olmuş sabitlik şəraitində həyata keçirilən uğurlu iqtisadi islahatlar onun qonşu dövlətlərlə müqayisədə çox yüksək nailiyyətlər qazanmasını təmin etmişdir. Hazırda Azərbaycanın iqtisadiyyatı Ermənistanın iqtisadiyyatından 4 dəfə, valyuta ehtiyatları isə 20 dəfə çoxdur.

Cənab Prezidentin qeyd etdiyi kimi, ölkə iqtisadiyyatının sürətli inkişafına şərait yaradan yol infrastrukturunun, meliorasiya təsərrüfatının, yeni aqroparkların yaradılması daim diqqət mərkəzində olmuşdur. Təkcə keçən il 100 min hektar torpağa su verilməsi təmin edilmiş, 300 subartezian quyusu qazılmışdır ki, bu da kənd təsərrüfatının suya olan tələbatının ödənilməsini, eyni zamanda, içməli su ilə təchizatı yaxşılaşdırmışdır.

Ötən il Azərbaycan Respublikası Prezidentinin xalqın rifahına xidmət edən fərman və sərəncamları, imzaladığı qanunlar böyük rəğbətlə qarşılanmışdır. Dövlət başçısının 2018-ci ildə imzaladığı 428 qanunun, 617 fərmanın, 1055 sərəncamın əksəriyyəti ölkədə demokratik təsisatların daha da gücləndirilməsinə, idarəetmə strukturlarının təkmilləşdirilməsinə, iqtisadi islahatların davam etdirilməsinə və sosial infrastrukturun yaxşılaşdırılmasına yönəldilmişdir. Cənab İlham Əliyevin prezident seçkilərindən sonra qəbul etdiyi ilk fərman Vətən uğrunda həlak olmuş şəhidlərimizin ailələrinə, onların vərəsələrinə 11 min manat həcmində yardım göstərilməsi barədə olmuşdur.

*(Ardı səh.2-də)*

*(Əvvəli səh.3-də)*

Bu sahədə böyük işlər görülmüş və təkcə keçən il şəhid ailələrinə və onların vərəsələrinə 34,1 milyon manat vəsait ödənilmişdir.

Prezidentin sərəncamları ilə bir çox sosial obyektlərin tikintisinə, avtomobil yollarının çəkilməsinə və digər məqsədlərə böyük məbləğdə vəsait ayrılmışdır. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, dövlət başçısının 69 sərəncamı ilə Prezidentin Ehtiyat Fondundan ayrılmış 329 milyon manat vəsaitlə 41 şəhər və rayonda abadlıq-quruculuq işləri görülmüş, sosial iaşə obyektləri tikilmiş, 22 şəhər və rayonda əsaslı yenidənqurma işləri aparılmış, 13 rayonda yeni təhsil ocaqlarının inşasına başlanmış, 6 rayonda isə yeni yollar və körpülər tikilmişdir. Prezidentin Ehtiyat Fondundan bir çox ictimai təşkilatlara və dini icmalara, kütləvi informasiya vasitələrinə, tarix və mədəniyyət abidələrinin bərpasına göstərilən yardımlar ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır.

Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən sosial, ekoloji və digər ictimai layihələr, xüsusilə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında özünəməxsus yeri olan “Xocalıya ədalət!” kampaniyası, eləcə də gənclər siyasəti sahəsində görülən tədbirlər, gənclərin ölkəmizin ictimai-siyasi həyatına daha fəal cəlb edilməsi istiqamətində təşəbbüsləri böyük səmərə verir, çox rəğbətlə qarşılanır.

Məhz Mehriban xanım Əliyevanın təşəbbüsü ilə sosial xidmətlərin vahid mərkəzdən operativ və şəffaf şəkildə idarə olunması üçün ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə “DOST” (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyinin və “DOST” mərkəzlərinin yaradılmasına başlanılıb. 2019-cu ildə 4, ümumilikdə isə paytaxtda və respublikanın regionlarında 31 belə mərkəzin yaradılması, həmin mərkəzlərdə 124 xidmətin təqdim olunması nəzərdə tutulmuşdur. Bununla da işsizliyin aradan qaldırılması üçün yeni imkanlar açılacaq və 30 min yeni iş yerinin yaradılması təmin ediləcəkdir.

2018-ci il Qobustan rayonunda da çox da uğurlu bir il olmuşdur. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” Qobustan rayonunda da uğurla icra edilmişdir:

Azərbaycan Respublikası Prezidentinin 09 fevral 2018-ci il tarixli sərəncamı ilə Qobustan Rayon Mərkəzi Xəstəxanasının tikintisi, mövcud xəstəxana binalarının təmiri, avadanlıq və inventarla təchiz olunmasının başa çatdırılması məqsədilə 15 milyon 520 min manat vəsait ayrılmış, xəstəxananın tikintisi başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 21 fevral 2018-ci il tarixli sərəncamı ilə Qobustan rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə 2,0 milyon manat vəsait ayrılmış, xalçaçılıq emalatxanasının tikintisi başa çatdırılmışdır. Hazırda ilkin olaraq burada 55 nəfər işçi çalışır. Tam istifadəyə verildikdən sonra müəssisədə 165-dən artıq işçi çalışacaqdır. Eyni zamanda, “Azərxalça” ASC tərəfindən Qobustan rayonunda Regional Yun Qəbulu Məntəqəsinin də tikintisi başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2 aprel 2018-ci il tarixli sərəncamı ilə Qobustan rayonu Şıxzərli kəndində 96 şagird yerlik modul tipli ümumi orta məktəbin quraşdırılması üçün Təhsil Nazirliyinə 425,0 min manat vəsait ayrılmış, hazırda məktəbin tikintisi davam edir.

Azərbaycan Respublikası Prezidentinin 5 mart 2018-ci il tarixli sərəncamına əsasən rayonun Şıxzahırlı və İlanlı kəndlərinin qazlaşdırılması başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2018-ci il tarixli sərəncamı ilə Qobustan şəhərində 2 nömrəli 100 yerlik uşaq bağçasının tikintisi üçün Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyinə 1 milyon 391 min manat vəsait ayrılmışdır. Hazırda bağçanın tikintisi başa çatdırılmış, son tamamlama işləri aparılır. Bununla da rayonda fəaliyyət göstərən uşaq bağçalarına məxsus inzibati binaların 70 faizi yeni inşa edilmiş və ya əsaslı təmir edilmiş bağçalardır.

Azərbaycan Respublikası Prezidentinin 12 mart 2018-ci il tarixli sərəncamı ilə əkin sahəsinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların suvarma suyuna, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 2018-ci ildə Çuxanlı və Sündü kəndlərində 1 ədəd artezian quyusunun layihələndirilməsinin və qazılmasının təmin edilməsi məqsədilə “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinə vəsait ayrılmışdır. Hər iki quyu yaxın vaxtlarda istifadəyə veriləcəkdir.



Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2018-ci il tarixli sərəncamı ilə beş min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Qobustan-Poladlı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 6,4 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılmışdır. Yolun tikintisi artıq başa çatdırılmışdır. Son tamamlama işləri aparılır. Yaxın vaxtlarda yol tam şəkildə istismara veriləcəkdir.

Ümumilikdə 2014-2018-ci illərdə cənab Prezident sərəncamı ilə Qobustan rayonunda xəstəxananın, xalçaçılıq emalatxanasının, məktəb və uşaq bağçasının tikintisi, əkin sahələrinin suvarılması, yol çəkilişi, abadlıq və quruculuqla əlaqədar 10 sərəncam imzalanmış, həmin sərəncamlarla rayonumuza 31 milyon manatdan artıq vəsait ayrılmışdır ki, bu da rayon büdcəsindən 8 dəfə çoxdur. Onu da qeyd edək ki, bu sərəncamlardan 7-si 2018-ci ildə verilmişdir.

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində rayonumuzda:

Əhalinin təbii qazla təminatı istiqamətində Poladlı, Yekəxana, Şıxzahırlı və İlanlı kəndlərinə ilk dəfə təbii qaz verilmiş, qazlaşdırılmış yaşayış məntəqələrində 77 abonent təbii qazla təmin edilmişdir. Hazırda rayon əhalisinin 96 faizi təbii qazla təmin edilir. Onu da qeyd edək ki, alınmış təbii qazın dəyəri 2018-ci ildə 92,5 faiz ödənilmişdir. Ümumi itki isə 3,7 faiz olmuşdur.

Qobustan rayonunda son 5 il ərzində ümumi məhsul buraxılışının həcmi 2 dəfə, o cümlədən sənaye məhsulunun həcmi 48 faiz, kənd təsərrüfatının həcmi 56 faiz artmışdır. Tikintidə məhsul buraxılışı 136 dəfə, nəqliyyatda 19,3 faiz, rabitədə 2,2 dəfə, ticarətdə 6,7 dəfə artmışdır. 2013-cü illə müqayisədə əsas kapitala investisiyalar 2,5 dəfə artmışdır.

Rayonda 2018-ci ildə ümumi məhsul buraxılışı 2017-ci illə müqayisədə 8,2 faiz artaraq 178 milyon 669 min 200 manat olmuşdur. Kənd təsərrüfatında bu artım 2,2 faiz təşkil etmişdir.

2018-ci ildə rayonumuzda yerli gəlirlər üzrə mədaxil planı 3 milyon 6 min manat plana qarşı 3 milyon 508 min 6 manat icra olunaraq 116,7 faiz yerinə yetirilmişdir. Fiziki şəxslərin əmək haqlarından gəlir vergisi 109,1 faiz icra edilmişdir. Hüquqi şəxslərin mənfəət vergisi 129,8 faiz, əlavə dəyər vergisi 100,6 faiz icra edilmişdir. Aksiz vergisi planlaşdırılmadığı halda, bu tədiyyə növü üzrə 272,5 min manat vergi daxil olmuşdur. Bununla yanaşı, hüquqi şəxslərin əmlak vergisi, hüquqi şəxslərin torpaq vergisi, sadələşmiş vergi və dövlət rüsumu üzrə plan nisbətən kəsrlə yerinə yetirilmişdir. Sair daxilolmalar üzrə ödəmələr 5,8 dəfə artıq olmuşdur. Biz çalışmalıyıq ki, həm büdcənin proqnozlaşdırılması, həm də icrasına daha ciddi nəzarət edək. Çünki, növbəti illərdə rayonun özünü maliyyələşdirməsini tam şəkildə təmin etməliyik.

2017-ci illə müqayisədə pərakəndə əmtəə dövriyyəsi 3,1 faiz, əhaliyə göstərilən pullu xidmətlər isə 2,8 faiz artmışdır.

Onu da qeyd edək ki, ümumi məhsul buraxılışının 43,0 faizi istehsal sahələrinin payına düşür. Ümumi məhsul buraxılışında qeyri-dövlət sektorunun xüsusi çəkisi 97,9 faiz təşkil edir.

Qobustan rayonunun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. 2018-ci ildə ümumi məhsul buraxılışının 43 faizi kənd təsərrüfatının payına düşür. Ötən il rayonda 70 min 236 ton taxıl istehsal edilmişdir ki, bu da rayon tarixində ən yüksək göstərici olmaqla, ötən ilin müvafiq dövrünə nisbətən 17,0 min ton və ya 31,8 faiz çoxdur. İstehsal




olunmuş taxılın 48236 tonu buğda (ötən ildəkindən 14,3 min ton çox) 22,0 min tonu arpa (ötən ildəkindən 2,6 min ton çox) təşkil edir. Buğda sahəsi üzrə məhsuldarlıq 23,1 sentner (ötən illə müqayisədə 1,6 sentner çox), arpa üzrə isə 22,5 sentner (ötən ildəkindən 1,7 sentner çox) olmuşdur. Onu da qeyd edək ki, 2018-ci ildə əkin sahəsinin çox olmasına baxmayaraq (30936 ha əkin sahəsi olmuşdur ki, bu da ötən ildəkindən 5835 ha çoxdur) biçin işləri mütəşəkkil təşkil edilmiş və vaxtında başa çatdırılmışdır. 2019-cu ilin məhsulu üçün 31183 ha sahədə səpin işləri aparılmışdır ki, bu da ötən illə müqayisədə 247 hektar və ya 3,4 faiz çoxdur.

Onu da qeyd edək ki, ötən il 4986 mülkiyyətçiyə 30 927 ha sahə üçün 2 388 368,6 manat subsidiya verilmişdir.

Rayonumuzun əkinə yararlı 35815 ha torpaq sahəsinin artıq bu il 31183 hektarında taxıl, o cümlədən 22258 ha sahədə buğda, 8925 ha sahədə arpa əkilmişdir. 4632 ha sahə isə yazlıqlar və növbəti əkinlər üçün saxlanmışdır. Qarşımızda duran mühüm məsələlərdən biri məhsuldarlığın yüksəldilməsidir. Bunun üçün rayon fermerləri gübrələrdən vaxtında və düzgün istifadə etməli, siçanabənzər gəmiricilərə qarşı mübarizə səmərəli təşkil olunmalı, eyni zamanda alaq otlarına qarşı mübarizə tədbirləri düzgün aparılmalıdır. Belə olan halda biz daha yüksək məhsuldarlığa nail ola bilərik.

Rayon fermerləri artıq şumaltı və yemləmə gübrələrindən istifadəyə xüsusi önəm verirlər ki, bu da rütubətlə təmin olunmayan dəmyə şəraitə malik Qobustan rayonunda hər il əkinin tam şəkildə aparılmasına imkan yaradır. Hazırda rayonumuzda əkilmiş 31183 ha əkinin tam şəkildə həm ziyanvericilərdən, həm sahibsiz şəkildə buraxılan mal-qaradan qorunması ciddi şəkildə nəzarətə götürülmüşdür. Qeyd edək ki, ziyanvericilərlə sirayətlənmə xüsusilə aran zonasında yenə də yüksək səviyyədə müşahidə olunur. 2018-ci ildə 5280 ha sahədə siçanabənzər gəmiricilərə qarşı mübarizə tədbirləri aparılmış, dövlət tərəfindən verilmiş 160 kq brodifakum preparatından istifadə edilmişdir. 80 kq sink-fosfid gətiriləcək mülkiyyətçilərə verilmişdir. Rayonda 1794 ha sahəyə yemləmə gübrəsi verilmiş, 295 ton gübrədən istifadə edilmişdir.

Rayonumuzda 17 özəl və 2 dövlət toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Ötən il rayonda 4912 ton yüksək kondisiyalı toxum istehsal olunmuşdur. 2018-ci ildə toxum istehsalçılarına 279800 manat vəsait verilmişdir. Sevindirici haldır ki, hazırda rayonumuzda Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən gücü saatda 5 ton olan müasir toxumçuluq zavodunun tikintisinə başlanılmışdır. Bu il zavodun istifadəyə verilməsi gözlənilir.

Rayonumuzda kənd təsərrüfatının inkişaf etmiş sahələrindən biri də heyvandarlıqdır. 2018-ci ildə iribuynuzlu mal-qaranın baş sayı 2,3 faiz artaraq 30798 başa, o cümlədən inək və camışların baş sayı 5,1 faiz artaraq 12171 baş olmuşdur. Qoyun və keçilərin baş sayı 0,2 faiz artaraq 191 min 289 başa, quşların baş sayı isə 29,3 faiz artaraq 120 min 426 başa çatmışdır.

2018-ci ildə ərzində ət istehsalı 1,4 faiz artaraq 6001 ton, süd istehsalı 1,1 faiz artaraq 20,3 min ton, yumurta istehsalı 0,5 faiz artaraq 8,6 milyon ədəd olmuşdur. Hesabat dövründə 366,8 ton yun istehsal edilmişdir ki, bu da 2017-ci ilə nisbətən 1,2 faiz çoxdur.

Rayonda heyvandarlığın daha da inkişaf etdirilməsi məqsədilə cins tərkibinin yaxşılaşdırılması mühüm şərtlərdən biridir. Bunun üçün ilk növbədə biz malqaranın cins tərkibini yaxşılaşdırmağa nail olmalıyıq. Doğrudur, hesabat dövründə süni mayalama işinə də diqqət artırılmışdır. 2018-ci ildə 1182 baş inəkdə süni mayalama aparılmış, 737 baş buzov alınmışdır. Yerli sahibkarlara süni mayalama yolu ilə alınmış buzovlara görə 73700 manat subsidiya verilmişdir. 2017-ci illə müqayisədə süni mayalama yolu ilə alınmış buzovların sayı 81 faiz artmışdır. Lakin bu bizi qane edə bilməz. Çünki, ümumilikdə rayon üzrə mövcud olan 12 min 171 baş inək və 2 yaşdan yuxarı düyənin yalnız 10,0 faizi süni mayalamaya cəlb olunmuşdur. Biz çalışmalıyıq ki, bu göstəricini yüksəldək.

Hazırda rayonumuzda Aqroparkın yaradılması işləri davam edir. Qobustan rayonunun Qaracüzlü kəndi yaxınlığında 683,29 ha dövlət qış otlaq sahəsi, 298,37 ha bələdiyyənin örüş sahəsi Aqropark yaradılması məqsədilə seçilmiş, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 yanvar 2018-ci il tarixli 46s nömrəli sərəncamı ilə ərazinin təyinatı dəyişdirilmişdir.

Aqropark yaradılması məqsədilə dövlət fondunda olan 683,29 ha torpaq sahəsi Qobustan rayonu İcra hakimiyyəti başçısının 19 fevral 2018-ci il tarixli sərəncamı və 19 fevral 2018-ci il tarixli kt 001 nömrəli icarə müqaviləsi ilə “Bolluq E” MMC-nin icarəsinə verilmiş, müvafiq reyestrdən çıxarışlar alınmışdır.

298,37 ha bələdiyyə torpağının icarəyə verilməsi ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsinin DƏDRX tərəfindən bələdiyyə adına olmaqla reyestrdən çıxarış hazırlanaraq, 29 noyabr 2018-ci il tarixdə Əmlak Məsələləri Dövlət Komitəsinin Şamaxı Ərazi İdarəsinin hərrac və müsabiqə komissiyasına təqdim edilmişdir. Yaxın vaxtlarda sənədləşmənin başa çatdırılması gözlənilir.

Ötən dövr ərzində “Bolluq E” MMC tərəfindən elektrik xəttinin çəkilişi ilə bağlı işlərə başlanmış, artıq 1,5 km uzunluqda elektrik xətti çəkilmişdir. Ərazidə 200 başlıq ətlik istiqamətli ferma tikintisinin eskiz layihəsi hazırlanmış, tikinti işlərinə başlanılmışdır.

Aqroparka gedən 17 km yol əsaslı təmir edilmiş, alt örtüyü hazırlanmış, ərazi tamamilə şumlanaraq təmizlənmiş, sahələrarası yollar qaydaya salınmışdır. Ərazidə işləmək üçün lizinq yolu ilə 4 ədəd traktor, 3 ədəd kombayn, 1 ədəd “Kamaz” markalı avtomobil və zəruri digər kənd təsərrüfatı texnikaları, toxumsəpən, diski, kotan, çiləyici və s. alınmışdır. Torpağın ümumi analizi aparılaraq tərkibi öyrənilmiş, ötən əkin dövründə əraziyə müvafiq şumaltı və yemləmə gübrələri verilərək münbitliyi yaxşılaşdırılmışdır.

2018-ci ildə 400 ha sahədə buğda, 300 ha sahədə arpa əkilmiş, ümumilikdə 1002 ton taxıl istehsal edilmişdir ki, bunun 522 tonunu buğda, 480 tonunu isə arpa təşkil edir. Suvarma təmin edilmədiyi üçün 2018-ci ildə 160 ha buğda, 40 ha arpa sahəsində biçin aparmaq mümkün olmamışdır.

“Bolluq E” MMC tərəfindən 320 ha sahədə “Pivot” qurulması layihələndirilsə də, ümumilikdə dövlət investisiyası ilə həyata keçirilməli olan 14 km məsafədən çəkiləcək su kanalı və hovuzun, elektrik təchizatının olmaması səbəbindən qurulmamışdır. 2019-cu ilin məhsulu üçün 500 ha sahədə şum çıxarılmış, 400 ha sahədə isə arpa əkilmişdir.

Ərazinin su təminatı olarsa burada sahibkar tərəfindən 100 ha qarğıdalı, 100 ha günəbaxan, 100 ha yonca və 80 ha meyvə bağının salınması, 600 ha sahədə isə suvarma yolu ilə yüksək məhsuldarlığa malik taxıl yetişdirilməsi nəzərdə tutulur. Eyni zamanda, burada 50 nəfərədək mövsümi və müvəqqəti işçi işlə təmin olunacaqdır.

Aqroparkın yaranması rayon sahibkarlarına intensiv taxılçılıq, suvarma əkinçiliyi, müasir heyvandarlıqda əldə olunacaq yüksək nəticələrlə əyani şəkildə tanış olmaq, bu sahələrə investisiya qoyulmasına, rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına bir stimul yaradacaqdır.

Son illərdə rayonumuzda arıçılığa maraq artmışdır. 2018-ci ildə arı ailələrinin sayı 2,8 dəfə artaraq 4109 arı ailəsi olmuş, məhsul istehsalı 66 faiz artaraq 20 tona çatmışdır. 2018-ci ildə 81 mülkiyyətçiyə 1775 arı ailəsinə görə 17750 manat subsidiya verilmiş, 80 mülkiyyətçiyə 1389 arı ailəsinə görə subsidiyanın verilməsi üçün sənədləşmə aparılır.

2018-si ildə rayonun Təsi kəndində fiziki şəxs tərəfindən 20 ha badam bağı salınmışdır, 7000-ə dək badam ağacı əkilmişdir.

*(Ardı səh.3-də)*

*(Əvvəli səh.2-də)*

Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2018-ci ildə 5 layihə üzrə 54500,0 manat güzəştli kredit ayrılmış, 9 yeni iş yeri yaradılmışdır.

Ötən dövr ərzində Qobustan rayonunda yaradılmış şərait nəticəsində rayona ümumi dəyəri 9030,0 min manat məbləğində investisiya cəlb edilmişdir ki, bunun 3431,0 min manatı 2018-ci ildə qoyulmuşdur. 2018-ci ildə cəlb edilmiş investisiyanın 1250,0 min manatı kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinə yönəldilmişdir.

Rayonumuzda əhalini narahat edən məsələlərdən biri elektrik enerjisi ilə fasiləsiz təminat məsələsi olmuşdur. 70-ci illərdə çəkilmiş, istismar müddətini artıq bir neçə dəfə başa vurmuş xətlər yüngül küləkli havalarda belə elektrik enerjisində fasilələr yaradırdı. Son illərdə bu istiqamətdə də ciddi işlər görülmüşdür. Belə ki, 35 kV-luq hava xətlərində 17 ədəd metal dayaq və 81 ədəd izolyator, 10 kV-luq hava xətlərində isə 229 ədəd metal, 71 ədəd ağac dayaq,12780 metr naqil və 565 ədəd izolyator istifadə edilməklə təmir işləri aparılmışdır. Qobustan şəhərində və Poladlı kəndində 300 ədəd SİP dayaq quraşdırılmış, 7355 metr kabel çəkilmiş, 250-dən artıq abonentin elektrik enerjisi ilə təminatı yaxşılaşdırılmışdır. Şəbəkənin xidmət ərazisində 10 kV-luq hava xətlərində istismara yararsız dayaq, naqil və izolyatorların əvəzinə 271 ədəd 10 kV-luq metal dayaq quraşdırılmış, 29,0 km naqil və 800 ədəd izolyator istifadə edilmişdir.

Ötən 5 ildə Qobustan Elektrik Şəbəkəsinin xidmət ərazisində quraşdırılmış 16 ədəd müxtəlif güclü yeni komplekt transformator məntəqəsi istismara verilmişdir. 0,4 kV-luq Qobustan şəhər evx-də ÖİN(SİP) kabel çəkilişi ilə əlaqədar olaraq 5 ədəd transformator tam kabelləşərək əhalinin istifadəsinə verilmiş və 607 abonent yeni sistemə keçirilmişdir. 0,4 kV-luq Təklə kənd evx-də ÖİN(SİP) kabel çəkilişi ilə əlaqədar olaraq 5 ədəd transformator tam kabelləşərək əhalinin istifadəsinə verilmiş və 429 abonent yeni sistemə keçirilmişdir. ÖİN(SİP) kabel çəkilişi tamamlanmışdır. 0,4 kV-luq Ərəbşalbaş kənd evx-də ÖİN(SİP) kabel çəkilişi ilə əlaqədar olaraq 1 ədəd transformator tam kabelləşərək əhalinin istifadəsinə verilmiş və 58 abonent, Poladlı kənd evx-də ÖİN(SİP) kabel çəkilişi ilə əlaqədar olaraq 1 ədəd transformator tam kabelləşərək əhalinin istifadəsinə verilmiş və 20 abonent, 0,4 kV-luq Çalov kənd evx-də ÖİN(SİP) kabel çəkilişi ilə əlaqədar olaraq 1 ədəd transformator tam kabelləşərək əhalinin istifadəsinə verilmiş və 131 abonent yeni sistemə keçirilmişdir. Ümumilikdə rayonun Qobustan şəhər, Təklə, Ərəbşalbaş, Poladlı və Çalov kəndlərində 1245 abonent yeni sistemə keçirilmişdir.290 ədəd elektron tipli sayğac Qobustan Elektrik Şəbəkəsinin xidmət ərazilərində abonentlərin elektrik enerjisindən istifadəsi üçün quraşdırılmışdır. 63,23 km uzunluğunda 10 kV-luq evx-lərində 119 ədəd qəzalı dayaq, həmçinin 52,87 km uzunluğunda 0,4 kV-luq evx-lərində 138 ədəd qəzalı dayaq cari təmir olunaraq bərpa edilmişdir. 2018-ci ildə 4 ədəd müxtəlif güclü köhnə və qəzalı transformatorlar dəyişdirilərək, yeni müasir tipli transformatorlarla əvəz edilmişdir. 10 kV-luq Nabur evhx-də 1 ədəd, 10 kV-luq Qurbançı budaqlanmasında 1 ədəd, 10 kV-luq Cəyirli evhx-də 2 ədəd və 10 kV-luq Şəhər 2 evhx-də 3 ədəd 10 kV-luq RLND -10 tipli xətt ayırıcısı quraşdırılmışdır. 35/10 kv-luq "Qobustan" yarımstansiyasında 35 kV-luq yağ açarı yeni "eleqaz" açarı ilə, 10 kV-luq giriş açarı isə vakkum açarı ilə təmin olunmuş, 35/10 kV-luq "Nərimanov" yarımstansiyasında yeni vakkum tipli açar quraşdırılmış, 35/10 kV-luq "Təklə" yarımstansiyasında 30 kVA gücündə xüsusi sərfiyyat transformatoru quraşdırılmışdır. 2019-cu ildə isə Qobustan şəhərində kabelləşmənin tam başa çatdırılması, eyni zamanda Poladlı, Nabur, Təklə Mirzəbaba və Sündü kəndlərində mövcud 0,4 kV-luq xətlərin yeni ÖİN(SİP) kabellə əvəzlənməsi nəzərdə tutulur. Görülmüş tədbirlər nəticəsində əhali fasiləsiz enerji ilə təmin edilir. Lakin bu sahədə işlərin tam şəkildə başa çatdırılmasına ehtiyac vardır.

2018-ci ildə rayon üzrə istehlak edilmiş elektrik enerjisinin dəyəri 90,14 faiz ödənilmişdir. Əlbəttə ki, əgər örtülü naqillərə keçid başa çatdırılarsa, istehlak olunmuş elektrik enerjisinin dəyərinin 100 faiz ödənilməsi təmin ediləcəkdir. Onu da qeyd edək ki, 2018-ci ildə rayon üzrə istehlak olunmuş elektrik enerjisinin 16 faizi Qobustan hibrid tipli Alternativ Elektrik Enerjisi Stansiyasında istehsal olunmuşdur. Bu Qobustan şəhərinin istehlak etdiyi illik enerjidən artıqdır.



Rayonumuz üçün ən ciddi problemlərdən biri içməli su ilə təminat məsələsi olmuşdur. Vaxtilə rayonumuzda demək olar ki, heç bir kənddə içməli su şəbəkəsi olmadığı halda, hazırda rayon sakinlərinin 40 faizindən çoxu içməli sudan normal istifadə edirlər. Onu da qeyd edək ki, son 5 ildə bu sahədə həm iş baxımından, həm də dəyər baxımından çox böyük işlər görülmüşdür. Son beş ildə bu sahəyə qoyulmuş vəsait rayonun illik büdcəsindən 30 dəfə artıqdır. Növbəti illərdə biz ilk növbədə 2013-cü ildə içməli su xətti çəkilmiş Ərəbqədim, Cəmcəmli, Göydərə kəndlərində şəbəkənin qurulmasına, eyni zamanda Xilmilli və digər kəndlərdə içməli su təminatının yaxşılaşdırılmasına nail olmalıyıq. 2018-ci ildə içməli suyun dəyəri rayon əhalisi tərəfindən 102 faiz ödənilmişdir və bu da ötən ilin müvafiq dövrünə nisbətən 6,8 faiz çoxdur.

Rayonumuzda son illərdə yol təsərrüfatı sürətlə inkişaf edir.2011-ci ilədək Qobustan rayonunda rayon mərkəzi və Cəngi kəndindən başqa heç bir kəndin asfalt örtüklü yolu olmadığı halda, hazırda Cəyirli, Çalov, Xilmilli, Ərəbşalbaş, Çuxanlı, Təklə, Sündü kəndlərinin daxilinədək asfalt yollar çəkilmiş, Nabur, Cəmcəmli, Qurbançı, Ərəbşahverdi və Şıxzahırlı kəndlərinin yolları təmir olunaraq normal vəziyyətə gətirilmişdir. 2018-ci ildə Dərəkənd kəndində 1 km, Ərəbşalbaş kəndində isə yerli sahibkar tərəfindən 0,6 km asfalt örtüklü yol çəkilmişdir. Ümumilikdə, rayon üzrə 84 faiz əhalinin yaşadığı şəhər, qəsəbə və kəndlər asfalt örtüklü yollar üzərində yerləşir.

Rayonumuzda rabitə xidməti sahəsində də son illərdə bir sıra işlər görülmüşdür. Hazırda rayonumuzda 91 faiz əhalinin yaşadığı 21 yaşayış məntəqəsinin internetə çıxış imkanları vardır. Telefon çəkilişi 2017-ci ilə müqayisədə 7,2 faiz artmış, Cəngi və Təklə Mirzəbaba kəndləri telefonlaşdırılmışdır. 2017-ci ilə müqayisədə rayonda internet istifadəçilərinin sayı 329 nəfər və ya 34,1 faiz artmışdır. Ümumilikdə 2018-ci ildə rabitə sahəsinin inkişafı üçün rayona 214,1 min manat investisiya qoyulmuş, rabitə xidmətlərinin həcmi isə ötən illə müqayisədə 14 faiz artmışdır.

2018-ci il dekabr ayının 14-dən 28-dək Qəbələ Asan Xidməti rayonumuzda olmuş, 15 gün ərzində 1051 nəfər qəbul edilmiş, 418 nəfərə şəxsiyyət vəsiqəsi, ümumvətəndaşlıq pasportu, sürücülük vəsiqəsinin dəyişdirilməsi, vətəndaşlıq vəziyyəti aktları, notarial fəaliyyət və daşınmaz əmlakla bağlı hazır sənəd verilmiş, 52 nəfərə isə informasiya xidməti göstərilmişdir.

Rayonda əhalinin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin yaranması, sosial müdafiə məsələləri də daim diqqətdə saxlanılır. Cənab Prezidentin tapşırığı əsasında 2018-ci ildə Qobustan rayonunda abadlıq və təmir-tikinti ilə əlaqədar 155 yeni iş yeri yaradılmışdır. Bu iş yerlərində əsasən gənclər işlə təmin olunmuşlar. Bu il də rayonumuzda 155 yeni iş yeri yaradılmış, aztəminatlı ailələr, gənclər həmin iş yerlərində işlə təmin olunmuşlar.

2018-ci ilin 18 sentyabr tarixində keçirilmiş əmək yarmarkasında 11 müəssisədən 176 vakant yer çıxarılmış, 40 nəfərə işə göndəriş verilərək müvafiq işlə təmin olunmuşdur.

Ötən il 317-si daimi olmaqla, 2893 yeni iş yeri yaradılmışdır. Kənd təsərrüfatı bitkilərinin əkini ilə əlaqədar əlavə olaraq 5253 nəfər müvəqqəti və mövsümi işlə təmin edilmişdir.

Özünüməşğulluqla əlaqədar 30 ailə seçilmiş, həmin ailələrə ailə təsərrüfatını yaratmaq üçün ilkin köməkliklər göstərilmişdir. Belə ki, 4 ailəyə xidmət sahəsində, 26 ailəyə isə heyvandarlıq və arıçılıqla bağlı aktivlər verilmişdir. Bu çox gözəl bir təşəbbüsdür ki, ailələr öz halal zəhmətləri ilə özləri üçün məşğulluq yaradıb, dolanışıqlarını təmin edirlər.

Hazırda rayonumuzda 4416 nəfər əmək pensiyaçı, 2710 nəfər sosial müavinət, 92 ailə Ünvanlı Dövlət Sosial Yardımı alır. Bir ailəyə düşən orta ÜDSY-nın məbləği 191,07 manat təşkil edir.




2018-ci ildə Heydər Əliyev Fondu tərəfindən aztəminatlı ailələrə Novruz Bayramında bayram sovqatı verilmiş, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il ərəfəsində isə hər bir aztəminatlı ailəyə 100 manat maddi yardım göstərilmişdir.

Heydər Əliyev Fondu tərəfindən rayonun Təsi kəndində şəhid ailəsi Cəmilova Firəngiz Məhəmməd qızı üçün 0,6 ha qoz bağı salınmış, suvarma sistemi ilə təmin edilmişdir.

Qobustan şəhərində 1 Qarabağ əlili və 1 şəhid ailəsinin hər biri üçün 2 mənzilli, 2 Qarabağ əlili üçün isə 3 mənzilli yaşayış evinin tikintisi başa çatmış, bu il istifadəyə verilməsi gözlənilir. Qobustan şəhərində Şəhid Valeh Babayevin xatirəsinə möhtəşəm abidə-bulaq kompleksi yaradılmışdır.

İcra hakimiyyəti tərəfindən ənənəvi olaraq 2018-ci ildə də 520 aztəminatlı ailəyə il ərzində 4 dəfə olmaqla bayram sovqatı verilmiş, 20 nəfərə müxtəlif maddi yardımlar göstərilmişdir.

2018-ci ildə rayon üzrə Silahlı Qüvvələrə Yardım Fonduna könüllü olaraq 12633 manat vəsait köçürülmüşdür ki, bu da 2017-ci illə müqayisədə 214 manat çoxdur.

Rayonumuzda çağırış yaşlı vətəndaşların orduya çağırışı daim nəzarətdə saxlanılır. 2018-ci ildə 237 çağırışçı gənc ordu sıralarına göndərilmiş, 271 nəfər ordudan tərxis olunmuşdur.

2018-ci il ərzində cinayətkarlığa qarşı mübarizə, ictimai təhlükəsizliyin təmin edilməsi, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin, mülkiyyətinin hüquqazidd əməllərdən qorunması sahəsində qanunla müəyyən edilmiş vəzifələr layiqincə yerinə yetirilmişdir.Hesabat dövründə rayon ərazisində 26 cinayət hadisəsi qeydə alınmışdır ki, bunlardan 11-i az ağır, 15-i isə böyük ictimai təhlükə törətməyən cinayətlər olmuşdur. Onu da qeyd edək ki, ümumilikdə 2017-ci illə müqayisədə cinayətlərin sayı 16 faiz azalmışdır. Ağır və xüsusilə ağır cinayət hadisəsi baş verməmişdir. Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayət hadisəsi qeydə alınmamışdır.

Azərbaycan Respublikası Prezidentinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomaniyanın yayılması ilə mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar keçirilən əməliyyat tədbirləri nəticəsində narkotiklərin qeyri-leqal dövriyyəsi ilə əlaqədar 5 cinayət faktı qeydə alınmış, nəticədə ümumilikdə dövriyyədən 270,681 qram narkotik vasitə olan qurudulmuş "marixuana", 0,079 qram heroin dövriyyədən çıxarılmışdır.

2018-ci il ərzində İcra hakimiyyətinə 20 inzibati protokol daxil olmuşdur. Bunlardan İnzibati Xətalar Məcəlləsinin (İXM) 396-cı maddəsi ilə bağlı (Şəhərlərin və digər yaşayış məntəqələrinin abadlaşdırma qaydalarının pozulması) 14 inzibati protokol daxil olmuş 5 inzibati protokol üzrə cərimə tam ödənilmiş, 2 inzibati protokola xitam verilmiş, 7 cərimə müəyyən olunan müddət ərzində ödənilmədiyi üçün İXM-nin 150.7-ci maddəsinə əsasən "İcra haqqında "Azərbaycan Respublikasının Qanunu"nda nəzərdə tutulmuş qaydada məcburi icraya yönəldilmişdir.

İXM-nin 395-ci maddəsi (özbaşına tikinti işlərinin aparılması) ilə bağlı 5 inzibati protokol daxil olmuş, 1 protokol üzrə şərti cərimə tətbiq olunmuş, 4 inzibati protokola inzibati xəta tərkibi olmadığı üçün xitam verilmişdir.

İXM-nin 454-cü maddəsi ilə bağlı (qanunsuz küçə ticarəti ilə Sumqayıt şəhəri Polis İdarəsi 3-cü Polis Bölməsi ) 1 inzibati protokol daxil olmuş və düzgün tərtib edilmədiyi üçün geri qaytarılmışdır.

Qobustan rayonu İcra hakimiyyətinin başçısı aparatında vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasında öz əksini tapmış şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququna daim hörmətlə yanaşılmış, onların hər bir şikayətinə, ərizə və təkliflərinə "Vətəndaşların müraciətlərinə baxılması haqqında" Azərbaycan Respublikasının qanununa müvafiq baxılmış, kargüzarlığın aparılmasında "Dövlət Hakimiyyət orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması qaydalarına" əməl edilmişdir.

14.04.2015-ci il tarixdə Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsində vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sistemi yaradılmış, həmin tarixdən etibarən daxil olan müraciətlər informasiya sisteminə qeydiyyata alınmışdır. Ümumilikdə Rayon İcra Hakimiyyətinə daxil olmuş 283 müraciətdən hamısı informasiya sistemində qeydiyyata alınmış, məsul şəxslər tərəfindən onların dövriyyəsinə, icrasına nəzarət edilmişdir.

2018-ci ildə Qobustan rayon İcra hakimiyyətinin başçısı aparatına Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından 150, Azərbaycan Respublikasının Nazirlər Kabinetindən 11, Azərbaycan Respublikasının Milli Məclisindən 2, digər mərkəzi İcra hakimiyyəti orqanlarından 19 vətəndaş müraciəti daxil olmuşdur. Birbaşa rayon İcra hakimiyyətinə 2018-ci ildə 283 təklif, ərizə və şikayət daxil olmuşdur. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuş 7 şikayət ərizəsi nəzarətdə olmuşdur.

Ümumilikdə daxil olmuş 283 müraciətdən 32-nə və ya 11,31 faizinə nəzarətə alınmaqla baxılmışdır. Müraciətlərdən 130-u və ya 45,9 faizi ərizə, 151-i və ya 53,3 faizi şikayət, 2-si və ya 0,7 faizi təklif olmuşdur.

Ərizələrin 5-i və ya 3,8 faizi qəbul , 2-si və ya 1,5 faizi dövlət qulluğu və kadr məsələləri, 15-i və ya 11,5 faizi şəhər, rayon icra hakimiyyətləri və bələdiyyələrin fəaliyyəti, 1-i və ya 0,8 faizi maliyyə və bank məsələləri ,10-u və ya 7,7 faizi torpaq məsələləri,1-i və ya 0,8 faizi elm və təhsil məsələləri, 1-i və ya 0,8 faizi mədəniyyət və turizm məsələləri, 3-ü və ya 2,3 faizi nəqliyyat məsələləri, 1-i və ya 0,8 faizi ekologiya və təbii sərvətlər məsələləri, 26-sı və ya 20 faizi sosial müdafiəsi məsələləri ilə bağlı, 2-si və ya 1,5 faizi enerji daşıyıcıları və su təhcizatı məsələləri, 17-si və ya 13,1 faizi mənzil məsələləri, 5-i və ya 3,8 faizi şəhərsalma və tikinti məsələləri, 1-i və ya 0,8 faizi qaçqınlarla və məcburi köçkünlərlə bağlı məsələlər, 16-sı və ya 12,3 faizi təbii fəlakət hadisələri və fövqəladə hallarla bağlı, 15-i və ya 11,5 faizi məişət məsələləri, 3-ü və ya 2,3 faizi ədliyyə orqanlarının fəaliyyəti, 1-i və ya 0,8 faizi dövlət quruculuğu və qanunvericilik məsələləri, 5-i və ya 3,8 faizi sənaye, iqtisadiyyat və sahibkarlığın inkişafı ilə bağlı məsələlərlə bağlı olmuşdur.

Bu ərizələrdən 26-sı və ya 20 faizi müsbət həll edilmiş, 98-nə və ya 76,1 faizinə müvafiq izahat verilmiş, 1-i və ya 0,8 faizi aidiyyəti üzrə göndərilmiş, 3-ü və ya 2,3 faizi qismən həll olunub, 1-i və ya 0,8 faizi baxılmamış saxlanılıb.

Şikayətlərin 3-ü və ya 2 faizi qəbul, 25-i və ya 16,6 faizi dövlət qulluğu və kadr məsələləri, 27-si və ya 17,9 faizi şəhər, rayon icra hakimiyyətləri və bələdiyyələrin fəaliyyəti, 2-si və ya 1,3 faizi milli təhlükəsizlik məsələləri və hüquq mühafizə orqanlarının fəaliyyəti, 1-i və ya 0,7 faizi kənd təsərrüfatı məsələləri, 52-si və ya 34,4 faizi torpaq məsələləri, 2-si və ya 1,3 faizi elm və təhsil məsələləri, 1-i və ya 0,7 faizi ekologiya və təbii sərvətlər məsələləri, 1-i və ya 0,7 faizi müdafiə, Qarabağ münaqişəsi,orduya çağırış məsələləri, 5-i və ya 3,3 faizi sosial müdafiəsi məsələləri ilə bağlı, 4-ü və ya 2,6 faizi enerji daşıyıcıları və su təhcizatı məsələləri, 5-i və ya 3,3 faizi mənzil məsələləri, 3-ü və ya 2 faizi şəhərsalma və tikinti məsələləri, 2-si və ya 1,3 faizi təbii fəlakət hadisələri və fövqəladə hallarla bağlı, 8-i və ya 5,3 faizi məişət məsələləri, 4-ü və ya 2,6 faizi müraciətlərə baxılma ilə bağlı məsələlər,1-i və ya 0,7 faizi məhkəmələrin fəaliyyəti ilə bağlı, 3-ü və ya 2 faizi dövlət quruculuğu və qanunvericilik məsələləri, 2-si və ya 1,3 faizi sənaye, iqtisadiyyat və sahibkarlığın inkişafı ilə bağlı məsələlərlə əlaqədar olmuşdur.

Bu şikayətlərdən 7-i və ya 4,6 faizi müsbət həll edilmiş, 6-sı və ya 4 faizi qismən həll olunmuş, 128-nə və ya 84,8 faizinə müvafiq izahat verilmiş, 6-sı və ya 4 faizi əsassız sayılmış, 4-ü və ya 2,6 faizi baxılmaq üçün aidiyyəti üzrə digər orqanlara göndərilib.

*(Ardı səh.4-də)*

*(Əvvəli səh.3-də)*

Təkliflər Sündü kənd sakini Cəbiyeva Fəzilə Rəhmət qızı tərəfindən 100 yaşının Xalq Cümhuriyyətinin 100 illik yubileyinə təsadüf etdiyi üçün onun da bayram tədbirlərində iştirakı və Qaracüzlü kənd sakini Hüseynov İbrahim Məhəmmədəli oğlu tərəfindən Qaracüzlü kəndi ərazisində tut bağları salınaraq baramaçılığın inkişaf etdirilməsi ilə bağlı olmuşdur. Təkliflərin hər ikisinə müvafiq izahat verilmişdir.

2018-ci ildə rayon İcra hakimiyyətinin başçısı tərəfindən 31 rəsmi qəbul keçirilmiş, bu qəbullarda 152 nəfər, yerlərdə keçirilmiş 40 səyyar qəbulda 3209 nəfər iştirak etmiş, onlardan 93 nəfər vətəndaş qəbul edilmişdir.

Qeyd edək ki, 2018-ci ildə daxil olmuş şikayət xarakterli müraciətlər daha çox Qobustan şəhəri, Ərəbqədim, Qurbançı, Poladlı və Bədəlli kəndlərindən olmuşdur. Növbəti illərdə bu nümayəndəliklər üzrə vətəndaş müraciətlərinə daha diqqətli yanaşılmalıdır ki, onların müraciətləri yerlərdə cavablandırılsın. Qəbullarda qaldırılmış bütün məsələlərin həlli ilə bağlı müvafiq tədbirlər görülmüşdür.

Qobustan rayonu İcra hakimiyyətinin başçısı aparatında gənc kadrların seçilib yerləşdirilməsinə xüsusi diqqət yetirilir. 2018-ci ilin əvvəlinə İcra hakimiyyətinin başçısı aparatında 8 vakansiya olduğu halda, hazırda 4 vakansiya vardır. Aparatda dövlət qulluqçuları üzrə orta yaş həddi 36 yaşdır.

Möhtərəm Prezidentimizin sərəncamı ilə 2018-ci ildə Şərifova Zümrüd Xəlil qızı "Tərəqqi" medalına, Museyibov Vidadi İkram oğlu isə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişdir.

Ötən il rayonumuzda Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə Qobustan şəhərində regional qəbullar keçirmişlər. Əlbəttə ki, bu qəbular əhali tərəfindən rəğbətlə qarşılanır.

2018-ci il rayonumuzda təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində də bir sıra uğurlarla yadda qalmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində son illərdə rayonumuzda 16 yeni məktəb binası tikilmiş, 4 məktəb əsaslı təmir edilmiş, 1 məkəb üçün 10 əlavə sinif otağı inşa edilmişdir. 1 məktəbin tikintisinə başlanmışdır. Məktəblərin maddi-texniki bazası möhkəmləndirilmiş, ən müasir avadanlıq və texniki qurğularla təmin olunmuşdur. Rayon məktəblərinin 70,0 faizi müasir tələblərə tam şəkildə cavab verən, yeni inşa edilmiş və ya əsaslı təmir edilmiş məktəblərdir.

Onu da qeyd edək ki, diaqnostik qiymətləndirmənin nəticəsinə uyğun olaraq müəllimlərin əmək haqqı 2 dəfədən çox artırılmışdır.

2018-ci ildə istedadlı şagirdlərin üzə çıxarılması məqsədilə keçirilən fənn olimpiadasının respublika turunda 5 nəfər şagirdimiz iştirak etmiş, Şikar Şikarov adına Sündü kənd tam orta məktəbinin şagirdi Aydın Ağaverdiyev 3-cü dəfə Respublika olimpiadasının qalibi olmuşdur. A.Ağaverdiyev tam orta məktəbi qızıl medalla bitirmiş, rayon tarixində ən yüksək 683 bal toplayaraq Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına qəbul olunmuşdur. Onu da qeyd edək ki, 2018-ci ildə rayon üzrə 255 nəfər ali məktəbə qəbul olunmaq üçün sənəd vermiş, onlardan 110 nəfəri tələbə adını qazanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının tapşırığı ilə respublikamızın şəhər və rayonlarının ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Qobustan rayonundan olan 40 nəfərlik məktəbli qrupu və 5 nəfər nümayəndə 15-18 mart tarixlərində Lənkəran-Masallı-Astara bölgəsində olmuşlar. Tur aksiyası zamanı 6 rayon (Ağsu, Ağdaş, Quba, Qusar, Xaçmaz) şagirdləri arasında keçirilən "NƏ?, HARADA?, NƏ ZAMAN?" intellektual oyununda Qobustan məktəbliləri yüksək nəticə göstərərək birinci yerə layiq görülmüşlər.

18-21 noyabr tarixlərində isə daha 40 nəfər şagird Quba-Qusar-Xaçmaz bölgəsində olmuşlar. 440 məktəblinin iştirakı ilə keçirilən "NƏ?, HARADA?, NƏ ZAMAN?" intellektual oyununda Qobustan məktəbliləri üçüncü yerə layiq görülmüşlər.

24.12.2018-ci il tarixdə İsmayıllı şəhərində İsmayıllı Regional Mədəniyyət İdarəsinin təşkil etdiyi "İstedad sorağında 2018" adlı müsabiqənin yekun konserti keçirilmişdir. Təşkil olunan müsabiqənin əsas məqsədi Azərbaycan mədəniyyətinin təbliği və yetişməkdə olan gənc nəslin yaradıcılıq potensialının inkişafı olmuşdur. Müsabiqə Ağsu, İsmayıllı, Şamaxı, Qəbələ və Qobustan rayonlarından olan istedadlı gənclər arasında keçirilmişdir. Bu müsabiqədə Qobustan rayonundan olan iştirakçılar, yuxarı yaş qrupunda Binyətov Baxış I yerə, Cəbrayılov Nicat II yerə, Ağayeva Rəqsanə III yerə, aşağı yaş qrupunda isə Güləliyev Səyyaf I yerə, Məlikova Fədayyə III yerə layiq görülmüşlər. Digər iştirakçılar Əzizov Əvəzxan, Rəfiyev Amin, İmanov Kənan, Zərbəliyev Adəm, İbrahimov Taleh isə Fəxri Fərmanlarla təltif olunmuşlar. Qobustan şəhər R.Behbudov adına Uşaq İncəsənət məktəbinin direktoru Zaur Cəfərov isə 2018-ci ildə səmərəli fəaliyyətinə görə Fəxri Fərmanla təltif olunmuşdur.



Cənab Prezidentin təşəbbüsü ilə ənənəvi hal almış əhalinin ümumi dispanserizasiyası, əhalinin sağlamlığının qorunması tədbirləri bu il də davam etdirilmişdir. Ümumilikdə 24810 nəfər tibbi müayinəyə cəlb edilmişdir.1104 nəfər ambulator, 81 nəfər stasionar, 178 nəfər isə ixtisaslaşmış tibb müəssisəsinə göndərilmiş, 4 nəfər əməliyyat olunmuşdur. Bütün bu diqqət və qayğı əhali tərəfindən minnətdarlıqla qarşılanır və çox mühüm əhəmiyyətə malikdir. Bu il də tibbi müayinənin vaxtında başlanılması üçün bütün zəruri tədbirlər görülmüşdür.

Gənclər arasında narkomaniya, dini radikalizm, cinayətkarlıq, QİÇS və s. neqativ meyillərə qarşı profilaktik tədbirlər həyata keçirilmişdir. Dini radikalizmlə bağlı məsələlər xüsusilə diqqət mərkəzindədir. Aparılan təhlillər göstərir ki, qobustanlı gənclər multikultural dəyərlərə hörmətlə yanaşır, İslam dinində məzhəbçiliyə və təriqətçilyə yaxşı baxmır və buna görə də rayonumuzda gənclər arasında müxtəlif dini cərəyanlara, xüsusilə radikal təriqətlərə meyl yox dərəcəsindədir.

Qobustan İdman Kompleksinin istifadəyə verilməsi, İdman məktəbinin maddi-texniki bazasının gücləndirilməsi, yeni tikilən çoxsaylı məktəblərdə idmana yaradılan şərait, qurulan infrasturuktur, yeni idman bölmələrinin fəaliyyətə başlaması yeniyetmə və gənclər arasında idmanın kütləviliyinə nail olunmasına şərait yaratmışdır.

Hesabat dövründə əlaqədar təşkilatlarla birlikdə gənclərimizin hərbi xidmətə yolasalma mərasimləri, orta məktəb şagirdləri arasında "Şahin" hərbi - idman oyunu üzrə rayon birinciliyi keçirilmişdir. R.Babaşov adına Cəmcəmli kənd tam orta məktəbin komandası "Şahin" hərbi - idman oyunu üzrə rayon birincisi olmuş və oyunların Şamaxı şəhərində keçirilmiş zona birinciliyində 11 komanda arasında V yeri tutmuşdur.

Gənclər arasında sağlam həyat tərzinin təbliği və zərərli vərdişlərə, xüsusilə narkomaniyaya qarşı mübarizə tədbirləri Qobustan şəhər 1, 2 və 3 saylı tam orta məktəblərində və Gənclər Mərkəzində keçirilmişdir.

2018-ci ilin mart və aprel aylarında rayonun Sündü, Cəyirli, Nabur, Ərəbşalbaş, Təklə-Mizəbaba, Təklə, Bədəlli, Dərəkənd, Ərəbqədim və Cəmcəmli kəndlərində "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının 5.7.3 yarımbəndinin (Gənclər arasında seçki prosesinin və seçkilərdə (referendumda) iştirakının təbliği, ilk dəfə səs verən seçicilər arasında maarifləndirmə işinin təşkili) icrasını təmin etmək məqsədi ilə gənclər, xüsusilə ilk dəfə səs verən gənclərin seçki qaydaları ilə bağlı maarifləndirilməsi ilə bağlı seminarlar keçirilmişdir.

Yeniyetmə və gənclərin intellektual səviyyəsinin yüksəldilməsi məqsədilə "Xəmsə" Milli İntellektual Oyunu üzrə Gənclər arasında X Azərbaycan Çempionatının, Yeniyetmələr arasında VI Azərbaycan Çempionatının rayon mərhələləri, 28 May - Respublika günü münasibəti ilə "Nə? Harada? Nə zaman?" və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş intellektual oyunu üzrə rayon çempionatları keçirilmişdir. "Xəmsə" Milli İntellektual Oyunu üzrə Yeniyetmələr arasında VI Azərbaycan Çempionatının rayon mərhələsinin qalibi Qobustan şəhər 3 saylı tam orta məktəbin komandası 9 komandanın iştirak etdiyi Şirvan zona birinciliyində III yerə layiq görülmüşdür.

Hazırda rayonda bədən tərbiyəsi və idmanla 7500 gənc mütəmadi məşğul olur. İdman bölmələrinin avadanlıq və inventarla təmin olunması daim diqqət mərkəzindədir. Cari il ərzində mövcud idman zalları təmir olunmuş və zəruri idman avadanlıqları ilə təmin edilmişdir.

2018-ci il ərzində idmanın sərbəst güləş, ağır atletika, şahmat, armrestlinq, poverliftinq və VMH çoxnövçülüyü üzrə yarışlar, cüdo üzrə zona və respublika turniri keçirilmişdir. Bundan əlavə respublika və beynəlxalq yarışlarda iştirak edən idmançılarımız uğurlu nəticələr əldə etmişlər.

Karate üzrə 2 qat Dünya çempionu İbad Rzazadə Ukraynanın Xarkov şəhərində keçirilən Kempo-karate və Kobudo döyüş növləri üzrə Dünya çempionatında yenidən fərqlənərək 3-cü dəfə dünya çempionu adını qazanmışdır. Onun yetirməsi 14 yaşlı Rəvan Əkbərli isə yaşıdları arasında dünya ikincisi olmuşdur.

İran İslam Respublikasının Astara şəhərində keçirilmiş cüdo üzrə beynəlxalq turnirdə iştirak edən Fəqan Ağagülov II yeri tutaraq gümüş mükafat qazanmışdır.

2018-ci ilin dekabrında gənc karate ustaları Məmmədli Muhəmməd, Sabirov Rövşən, Abdullayev Əli, Məmmədli Süleyman, İsmayılov Cavidan və Babaşov Fərid Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş Qocyu-ryu Okinava Karate-do, Kempo-ryu və Kobudo döyüş növləri üzrə XXI Respublika birinciliyində I yerə layiq görülmüşlər. Digər karateçilərimiz Məmmədli Nicat, Rəhimli Nüsrət, Baloğlanov Loğman və Qaybalızadə Xanəli isə öz çəki dərəcələrində II yeri tutmuşlar.



İsmayıl Qurbanov ağır atletika üzrə kişilər və qadınlar arasında Azərbaycan çempionatında II yeri, Ölkə Kubokunda və gənclər arasında Azərbaycan birinciliyində I yeri tutmuşdur. Onların komanda yoldaşları Mürşüdov Səlimxan, Cəfərov Sadətdin, Zahidov Nahid və Məmmədov Tehran yeniyetmələrin ölkə birinciliyində II yerə layiq görülmüşlər. Rayon UGİM-in yetirməsi Baxışov İsmayıl ağır atletika üzrə gənclər arasında Azərbaycan birinciliyində, kişilər və qadınlar arasında Ölkə Kubokunda II yerə nail olmuşdur.

Cüdo idman növü üzrə 15 yaşadək yeniyetmələr arasında Azərbaycan birinciliyində Qobustan UGİM-in yetirməsi Babarəhim Mirzəyev III yeri tutmuşdur.

Ümumilikdə, 2018-ci il ərzində gənclər siyasəti sahəsində 41, idman sahəsi üzrə 21 tədbir həyata keçirilmiş və 7142 yeniyetmə və gənc bu tədbirlərdə iştirak etmişdir. Dövlət gənclər siyasəti sahəsində Qobustan rayon gəncləri 11 respublika tədbirində iştirak etmişdir. Bundan əlavə rayon idmançılarının 6 beynəlxalq, 25 respublika, 27 zona yarışlarında iştirakı təmin olunmuşdur. Bu yarışlarda 544 nəfər idmançı iştirak etmiş, 107 qızıl, 63 gümüş və 90 bürünc olmaqla, 260 medal qazanılmışdır.

Hesabat dövründə rayonumuzda digər sahələrdə də quruculuq-abadlıq işləri davam etdirilmişdir.

Rayon İcra Hakimiyyəti tərəfindən Heydər Əliyev Parkında əsaslı təmir, abadlıq işləri aparılmışdır. Daxili imkanlar hesabına Qobustan şəhərində Şahmat məktəbinin inzibati binasında son tamamlama işləri aparılır.

Bu il Qobustan şəhərində 1 ədəd 3 mərtəbəli, 2 ədəd birmərtəbəli, 2 ədəd 2 mərtəbəli binalar təmir edilmişdir. Rayonun Cəmcəmli kəndində həkim ambulatoriyası tikilərək istifadəyə verilmişdir.

Yaşıllıqlarla bağlı rayonumuzda müvafiq tədbirlər görülür. 2018-ci ildə Qobustan şəhərində və kəndlərdə 5000-dən artıq müxtəlif növ ağac, 3500-dən artıq qızılgül kolu əkilmişdir.

Heydər Əliyev Prospektində ümumilikdə bütün sahələr abadlaşdırılmışdır. Eyni zamanda Bakı-Şamaxı yolunun Qobustan şəhəri daxilindən keçən hissəsində yolun sağ tərəfindəki sahələrdə də abadlıq işləri aparılmış, əraziyə 200-dən artıq müxtəlif növ ağac əkilmişdir.

Ötən il rayonumuz üçün ən yadda qalan məsələlərdən biri çox yüksək səviyyədə, mütəşəkkillik, demokratiya və şəffaflıq şəraitində keçirilmiş Prezident seçkiləridir. Rayonumuzda Prezident seçkisi çox yüksək səviyyədə təşkil edilmişdir. Seçkilərə hazırlığa ciddi yanaşılması, seçki dövründə hər hansı bir çətinlik olmadan, sərbəst şəkildə seçkilərin keçirilməsini təmin etdi. Respublikada olduğu kimi rayonumuzda da seçkidən öncəki vəziyyət və seçki gününün gedişatı yerli və beynəlxalq müşahidəçilər tərəfindən izlənirdi. 3 böyük məntəqəmizdə veb kameralar qurulmuşdur ki, bu məntəqələri dünyanın hər yerindən izləmək mümkün idi. Çox sevindirici haldır ki, rayonumuzda seçkilərlə bağlı hər hansı bir qanun pozuntusuna yol verilməmişdir. Seçkidə əhalinin böyük fəallığı müşahidə edilmişdir. Gənclər, qadınlar, ağsaqqallar həvəslə məntəqələrə gələrək öz seçimlərini edirdilər. Rayonumuzda seçkidə iştirak edən 76,5 faizdən yuxarı əhalinin 86,42 faizi cənab İlham Əliyevin namizədliyini dəstəkləyərək, eyni zamanda qüdrətli, sabit, yüksək inkişafa doğru inamla irəliləyən sabahımıza səs verdilər.

2018-ci il cənab Prezidentimiz tərəfindən "Azərbaycan Xalq Cümhuriyyət İli" elan edilmişdir. Bununla bağlı 2018-ci ildə rayonumuzda silsilə tədbirlər hazırlanıb keçirilmişdir. Bu, il isə "Nəsimi ili" elan edilmişdir. Bütün bunlar Möhtərəm Prezidentimizin tariximizə sahib çıxması, müasir Azərbaycanın uğurlu gələcəyini təmin etməklə yanaşı, keçmişimizin də qorunub saxlanmasına bir töhfədir. "Nəsimi ili" də rayonumuzda mütəşəkkil şəkildə təşkil olunaraq keçiriləcəkdir.

Ölkəmizdə aparılan uğurlu islahatlar, möhtərəm Prezidentimizin verdiyi tövsiyə və tapşırıqlar, qəbul edilmiş Dövlət proqramları, başlanmış işlər Respublikamız və rayonumuz üçün 2019-cu ilin daha uğurlu bir inkişaf ili olacağını deməyə əsas verir.

2019-cu ildə də biz qobustanlılar cənab Prezidentin ətrafında daha sıx birləşərək verdiyi tapşırıq və tövsiyələri vaxtında və tam şəkildə yerinə yetirmək üçün bütün qüvvə, bilik və bacarığımızı səfərbər edəcəyik.

***Tel: 020-245-00-03***
***020-245-22-60***
***E_mail: mail@qobustan-ih.gov.az***

*Təsisçi:* **Qobustan Rayon İcra Hakimiyyəti**

***Baş redaktor:***
**Ruslan Şahbazov**
**Tel.: (050) 524 28 10**
**(070) 224 28 10**

***Ünvan:***
**Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.**
**Qəzet ayda iki dəfə çıxır**

**Qəzet "Red on line" mətbəəsində çap olunmuşdur**
**Tiraj: 2000**
**E_mail:qobustanqazeti@mail.ru**